


# Gəncə: körpə Nilayın ad günü və... erməni terroru

**_O, nə baş verdiyini hələ də dərk edə bilmir. Gah ağlayıb ata-anasını istəyir, gah gülür, gah da bu günlər Azərbaycanın hər yerindən ona gətirilən oyuncaqlara baxır, gəlinciklərin başını sığallayır və körpə, nədənsə, bu zaman daha çox kövrəlir..._**

Nilay bilmir ki, onun atasını da, anasını da, nənəsini də ermənilər öldürüb, rahat, isti yuvalarını dağıdıblar. Nilay hələ başa düşmür ki, həmin gecə gördüyü "dəhşətli yuxu"nu təşkil edənlər buradan çox uzaqlarda idilər və yaqin ki, dünyanın ən qorxaq, aciz, bədbəxt adamları sayılırdılar. Çünki şirin yuxuda olan günahsız dinc sakinləri – uşaqları, qadınları, qocaları uzaq məsafədən, cəbhə bölgəsindən on kilometrlərlə aralıda yerləşən bir şəhəri atəşə tutmaq, dağıntılar törətmək nə insanlığa, nə də beynəlxalq hüquq normalarına sığışan bir hərəkətdir. Bunun yalnız bir adı var: vəhşilik! Bu, terror idi! Xocalıda, azərbaycanlıların yaşadığı Ermənistan ərazilərində, yüzlərlə insanın həlak olduğu avtobuslarda, metroda, digər yerlərdə törətdikləri terror! Növbəti hədəf Gəncəni seçdilər. O Gəncə ki, vaxtilə onun suyunu içmişdilər, çörəyini yemişdilər, ən yaxşı yerlərində yaşamışdılar. Elə indi də bu qədim şəhərdə nümayəndələri az deyil. Hətta oktyabrın 4- də ilk dəfə atdıqları raket zərbəsindən onlardan biri də yaralanmışdı və azərbaycanlılar bu yaşlı qadını xəstəxanaya qucaqlarında aparmışdılar...

Nilay ağlayır...Adi bir uca səsdən də diksinir, səksəkə ilə ətrafa boylanır, qollarını nənəsinin boynuna daha bərk-bərk dolayır. Yanına gələnlər, könlünü almaq istəyənlər, nəvaziş göstərənlər, hədiyyə gətirənlər çoxdur, lap çox. Hətta Gəncədən deyil, digər şəhər və rayonlardan, Bakıdan da gələnlər var. Lakin bunların heç biri ana nəvazişini, ata qucağını əvəz etmir. Sonsuz kədərə, qüssəyə bürünən ana nənəsinin dəqiqədə bir "can bala" deməsi də onu bir o qədər də ovundurmurdu. İndidən hiss olunur ki, düşmən tərəfindən gecə yarısı atılan raket zərbəsi balaca Nilayın xatirəsindən, başqa sözlə, həyatından heç zaman silinməyəcək. Elə izlər qoyacaq ki, nəinki özü, gələcək nəsli-kökü unutmayacaq… Atası Adil Əliyev və nənəsi Afaq Əliyeva elə həmin gecə dünyasını dəyişdi. Anası Günay isə dağıntılar altından çıxarılandan bir gün sonra xəstəxanada həyata gözlərini əbədi yumdu.

Balaca Nilay hazırda ana nənəsi Sevil Babazadə ilə qalır. Nənəsi deyir ki, körpə möcüzə nəticəsində sağ qalıb. Çünki Nilay adətən, atası-anası ilə bir yerdə yatırdı. Valideynləri cəmi 4 il idi ki, xoşbəxt bir ailə qurmuşdular və Nilay bu xoşbəxtliyin ilk müjdəçisi idi… Qismət olmadı.

Nilay çox məsələlərdən bixəbərdir. İllər keçəcək, körpə bala biləcək, anlayacaq ki, valideynlərini itirən anda, evlərinə raket zərbəsi endirilən vaxt Qarabağda işğal olunmuş torpaqlarımızın bir çoxu bu faşistlərin əlindən alınmışdı və ermənilər ordumuzla bacarmadıqları üçün heyiflərini dinc əhalidən çıxmağa qərar vermişdilər. Özü də elə bir vaxtda ki, Moskvada imzalanmış humanitar atəş rejimi elan olunmasından heç 10-12 saat da keçməmişdi…

Bu günlər xarabalığa çevrilmiş erməni terroru ünvanına gələnlərin, gül-çiçək düzənlərin sayı-hesabı yoxdur. İnsanlar hiddətlərini gizlədə bilmirlər.

Hamının yekdil rəyi budur ki, Gəncədə törədilən görünməmiş vəhşilik bütün dünyaya çatdırılmalıdır, özü də bütün vasitələrlə. Çünki erməni 100 ildən çoxdur ki, olmayan "genosid" haqqında bar-bar bağırır, dünya ölkələrini bunu tanımağa çağırır. Doğrudur, xarici diplomatlar, dünyanın bir çox nüfuzlu nəşrlərinin nümayəndələri Gəncəyə gəlmiş, terror aktının nəticələrini öz gözləri ilə görmüş, təmsil etdikləri mətbuat orqanlarında bu barədə geniş yazılar vermişlər. Məsələn, Türkiyənin məşhur köşə yazarı Yılmaz Özdil son yazısında Ermənistanın dinc sakinləri hədəf alan terrorçu siyasətinə və Gəncə şəhərinin vurulmasına toxunub. Məqalə Türkiyənin "Sözcü" qəzetində yayımlanıb. Yazıda deyilir: "Atəşkəs rejimini pozan Ermənistan ordusu İzmirə raket hücumu həyata keçirmişdi. Bursaya ard-arda endirilən və evləri hədəf alan raket zərbələri səbəbindən 4-ü qadın olmaqla 11 mülki şəxs həlak olmuşdu. Hərbi cinayətlər törədən Ermənistan keçən həftə də mülki insanları hədəf almış, Elazığa raket hücumunda yaralananlar olmuşdu. Prezident Sarayından verilən açıqlamada, "Qarsa edilən raket hücumu və mülki insanların hədəf alınması, Ermənistanın bir daha terrorçu dövlət olduğunu göstərdi", – deyə bildirilmişdi.

Ermənistanın "Çankırı"ya etdiyi raket hücumu ilə əlaqədar Rusiya Xarici İşlər nazirinə zəng edən Türkiyə XİN rəhbəri "Ermənistanın İzmirə raket hücumlarını şiddətlə qınayırıq",- deyə bildirmişdi.

Müdafiə Nazirliyi Ermənistandan Bursaya raket hücumunun qəbuledilməz olduğunu bildirərkən, TBMM ortaq bir bəyanat yayaraq, Ermənistanın Qaziantepə hücumunu qınamış, erməni raketlərinin Elazığı vurduğu anlar isə mobil telefonlarla saniyə-saniyə qeydə alınmışdı".

Bu narahatedici cümlələri elə bir az narahat olaq deyə yazdım, qəzetlərimizdə dərc olunan xəbərlərdən topladım.

Şəhərlərimizin adlarını silin ... Hər şəhərin yerinə Gəncə yazın. Çünki Ermənistanın raketlərlə hücumuna məruz qalan Azərbaycandakı Gəncə yuxarıda göstərilən şəhərlərin "qardaş şəhəri"dir...

Ermənistanın mülki insanlara raket hücumu dünyaya bir daha göstərdi ki, yüz ildir "soyqırıma məruz qaldıq" deyən Ermənistan, günahsız mülki şəxslərin öldürülməsi üzrə peşəkardır və bəşər tarixi üçün bir daha nümunə oldu...Ermənistan mərdcəsinə mübarizə apara bilmir deyə, günahsız qadın və uşaqları bax belə xaincəsinə öldürür və sonra "qurban oldum" deyə ağlayır".

Bu günlər Gəncə Şəhər İcra Hakimiyyəti də çox böyük iş aparır, dünya ictimaiyyətinin diqqətini bu terror aktına cəlb etmək üçün bütün imkanlardan istifadə edir. Bu baxımdan şəhər icra hakimiyyətinin Avropa İdman Şəhərləri və Paytaxtları Federasiyasına, Avropa Gənclər Foruma, müxtəlif illərdə Avropanın gənclər paytaxtları olmuş 12 şəhərin merinə, habelə Koreyanın Qvanqju şəhərinin rəhbərliyinə göndərdiyi məktub maraq doğurur:

"Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən davamlı raket atəşinə tutulur. 11 oktyabr 2020-ci il tarixində saat 02:00 radələrində Ermənistan silahlı qüvvələri daha bir terror törədiblər. Belə ki, hərbi əməliyyatlar zonasından xeyli kənarda yerləşən Gəncə, Ermənistan ərazisindən "Skad-B" Taktiki Əməliyyat Raket Kompleksindən atılan taktiki ballistik raketlərlə yenidən atəşə tutulub. Nəticədə "Qələbə parkı"nın ətrafında yerləşən yaşayış binaları dağılıb, 5-i qadın olmaqla 10 nəfər həlak olub, 6-sı uşaq, 16-sı qadın olmaqla 35 nəfər yaralanıb. Ümumilikdə, 4 oktyabr 2020-ci il tarixindən indiyədək 11 mülki şəxs həlak olub, 70-dən çox dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 7 yaşayış binası tamamilə dağılıb, 100-lərlə obyektə ciddi ziyan dəyib.

10 oktyabr 2020-ci il tarixində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada baş tutan görüş nəticəsində qəbul olunan humanitar atəşkəs rejimi Ermənistanın hərbisiyasi rəhbərliyi tərəfindən kobudcasına pozulur. Erməni tərəfi humanitar atəşkəsin elə ilk dəqiqələrindən beynəlxalq humanitar hüququn öhdəliklərini pozaraq, məqsədyönlü şəkildə Azərbaycanın mülki əhalisini hədəf alır, raket və artilleriya atəşinə tutur".

Məktubda qeyd edilir ki, Ermənistanın Gəncəyə terror aktı nəticəsində 3 uşaq hər iki valideynini itirib: "Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ziyan dəyib. Belə ki,1887-ci ildə inşa edilmiş Aleksandr Nevski rus pravoslav kilsəsi, XIV əsrin "İmamzadə" Dini-Memarlıq Abidə Kompleksi, vaxtilə "Kişi gimnaziyası" kimi fəaliyyət göstərən, hazırda isə Azərbaycan Dövlət Aqrar Universitetinin istifadəsində olan yerli əhəmiyyətli tarixi abidə və Nizami kinoteatrı zərər görüb. 5 məktəb və 6 körpələr evi-uşaq bağçası, həmçinin Gəncə Musiqi Kollecinin binasına ciddi ziyan dəyib.

Məktubda o da qeyd olunub ki, bu tip müharibə cinayətləri və terror aktlarına beynəlxalq ictimaiyyət tərəfindən lazımi reaksiyanın olmaması, erməni tərəfinin cəzasız qalması, Ermənistan silahlı qüvvələrini bu çirkin və qanunsuz əməlləri davam etdirməyə təşviq edəcəkdir.

Bu hərəkət Ermənistanın humanitar atəşkəsə riayət etmədiyinin, hərbi təcavüz və Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirmək niyyətinin bariz təzahürüdür.

Biz Ermənistanı beynəlxalq hüquq normaları və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar qanunlar üzərindəki öhdəliklərinə tabe olmağa və BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərildiyi kimi, Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çəkilməsinə dair tələbləri yerinə yetirməyə çağırırıq".

Yeri gəlmişkən qeyd edək ki, məktubda adı çəkilən Gəncə rus provaslav kilsəsində Ermənistan ordusunun oktyabrın 11-də törətdiyi terror aktı nəticəsində həlak olmuş dinc sakinlərin anım mərasimi keçirilib. Mərasimdə həlak olanların ruhuna dualar oxunub, Azərbaycan Ordusuna qalibiyyət arzulanıb. Aleksandr Nevski rus provaslav kilsəsinin baş keşişi, varfolemey Sotnikov Ermənistan silahlı birləşmələrinin Azərbaycanın dinc şəhərlərini atəşə tutmasına münasibət bildirib: "Müharibə əsgərlər arasında aparılmalıdır. Yalnız terrorçular dinc əhaliyə qarşı mübarizə aparır. Ermənistanın qədim Gəncə şəhərini atəşə tutması da bunu göstərdi. Uşaqlar, qadınlar və qocalar xəsarət aldı. Mülki əhali heç bir şeydə günahkar deyil. Bunəsillərə əyani şəkildə çatdırmaq üçün həmin dağıntının əhatə etdiyi böyük ərazinin hamısını olduğu kimi saxlamaq mümkün olmasa da, müəyyən hissəsini hasara alıb saxlamaq pis olmazdı. Düzdür, burada "Xatirə lövhə"si vurulacaq, ola bilsin abidə ucaldıldı, həlak olanların adları yazıldı və sair. Lakin əyanilik tamam başqa bir sübutdur.



günkü dualarımız torpaqlarımızda, işğal altındakı ərazilərimizdə sülhün bərqərar olmasından, bu işğalçı-ermənilərin sakitcə torpaqlarımızı tərk etməsindən yana idi. Mən milliyyətcə rusam, amma burada doğulub böyümüşəm, Gəncə doğma şəhərimdir. Ermənistanın şəhəri atəşə tutması nəticəsində təkcə insanlar zərər görmədi, həm də dini binalar, o cümlədən bizim xristian məbədimiz zərər gördü".

Yuxarıda qeyd etdiyimiz fikirdən uzaqlaşmayaq və nə demək istədiyimizi bir daha aydınlaşdıraq. Bütün bunlar çox yaxşıdır və hiss olunur ki, düşmənin tarix boyu istifadə etdiyi yalan təbliğat mexanizminin əksinə olaraq biz real faktlara əsaslanaraq, bu işi artıq yüksək səviyyədə qurmağı bacarırıq. Lakin bu da azdır. Hər bir imkandan istifadə etmək lazımdır. Məsələn, dağıntılar barədə öz fikirlərimi bildirmək istəyirəm. Təbii ki, bu işdə son söz hökumət strukturlarının, yerli icra hakimiyyətinindir. Amma bu vəhşiliyi gələcək



Fransada Oradür-syur-Qlan adlı bir kənd var. Faşistlər 1944-cü il iyunun 10- da o kəndi dağıdıb və çoxlu dinc sakini öldürüblər. O vaxtdan kənd bu vəziyyətdə saxlanılır və ölkəyə gələn turistlərə göstərilir. Həmin kənd isə dağıntıların yanında yenidən salınıb.Təkcə bir ölkəni misal çəkdim. Buna bənzər nümunələr terror görən digər şəhərlərin də bəzilərində var.

Gələn ay, noyabrın 19-da balaca Nilayın ad günüdür. O bu ad gününü oktyabrın 11-dən hər yerdə axtardığı, hamıdan soruşduğu valideynləri olmadan keçirəcək. Amma bilmir ki, onun bu özəl gününə az qala bütün Azərbaycan hazırlaşır, təbrik etməyə tələsir. Biri ucuz, biri bahalı, kimin gücü nəyə çatırsa, hərə bir hədiyyə hazırlayıb. Ən böyük hədiyyə isə yəqin ki, ordumuzun hədiyyəsi olacaq, Qələbə hədiyyəsi!

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***